YARIŞDA 67987 və 16075 SAYLI HƏRBİ HİSSƏLƏRİN İDMANÇILARI FƏRQLƏNİBLƏR

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, may ın 06 - 07-də 25031 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda çoxnövçülük və estafet üzrə yarışlar keçirilib.

Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 25031, 16075 və 16076 saylı hərbi hissələrdən 6 komanda, 36 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi birincilik uğrunda keçirilən yarışların nəticələri belə olub:

100 m məsafə üzrə:

I yer - kiçik çavuş Mahmud Qasımov (67987 saylı hərbi hissə)
II yer - çavuş Əzimbala Həsənov (16075 saylı hərbi hissə)
III yer - əsgər Fərid Poladlı (16075 saylı hərbi hissə)

1000 m məsafə üzrə:

I yer - baş çavuş Əsgər Əhmədov (16075 saylı hərbi hissə)
II yer - əsgər Murad İsrafilov (67987 saylı hərbi hissə)
III yer - əsgər Ənvər Əmirli (99713 saylı hərbi hissə)

Gimnastika üzrə:

I yer - çavuş Rza Sədrəddinov (99713 saylı hərbi hissə)
II yer - əsgər Ağabəy Ağacanov (67987 saylı hərbi hissə)
III yer - baş əsgər İxtiyar Useynov (67987 saylı hərbi hissə)

Maneələrin dəf edilməsi üzrə:

I yer - əsgər Ənvər Əmirli (99713 saylı hərbi hissə)
II yer - əsgər Murad İsrafilov (67987 saylı hərbi hissə)
III yer - çavuş Azər Muradov (99713 saylı hərbi hissə)

Komanda üzrə nəticələr:

Çoxnövçülük üzrə:

I yer - 67987 saylı hərbi hissə
II yer - 99713 saylı hərbi hissə
III yer - 16075 saylı hərbi hissə

Estafet üzrə:

I yer - 16075 saylı hərbi hissə
II yer - 99713 saylı hərbi hissə
III yer - 25031 saylı hərbi hissə

Mətbuat xidməti

ÇALIŞQAN VƏ QAYĞIKEŞ BAŞ TİBB BACISI...

Daxili Qoşunların sıralarında üzərinə düşən vəzifələri vicdanla yerinə yetirən, fəaliyyətində uğurlu göstəricilərə nail olan hərbi qulluqçular çoxdur. "Əsgər"in səhifələrində belə hərbi qulluqçularımızı mütəmadi olaraq oxucularımıza təqdim edirik.

Daxili Qoşunların Hərbi Qospitalının baş tibb bacısı gizir Tərənə Əliyeva nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçudur. Hərbi Qospitalın komandanlığı tərəfindən onun fəaliyyəti müsbət xarakterizə olunur. O, 2 saylı Bakı Baza Tibb Kollecinin məzunudur. Tibb sahəsində çalışmaq arzusuna qovuşan gizir T. Əliyeva bu yönümdə biliklərini artırmaq, bacarıqlı kadr kimi yetişmək üçün əzmkarlığını heç vaxt əsirgəməyib.

Daxili Qoşunların Hərbi Qospitalında 2004-cü ildən fəaliyyət göstərən, kiçik çavuş hərbi rütbəsindən gizir hərbi rütbəsinədək yüksələn T.Əliyeva burada Cərrahiyyə şöbəsində tibb bacısı, Reabilitasiya şöbəsində tibb bacısı-sarğıçı, həmin şöbədə baş tibb bacısı vəzifələrində xidmət edib. İşgüzar keyfiyyətləri, özünə tələbkarlığı, ciddi nizam-intizamı, təcrübəsi nəzərə alınaraq 2014-cü ildə qospitalın baş tibb bacısı vəzifəsinə təyin olunub. Ona göstərilən bu etimadı bacarıqlı işi, çalışqanlığı, funksional vəzifələrinə məsuliyyətlə yanaşması ilə doğruldur. Qospitalın baş tibb bacısının vəzifələri genişdir və yüksək cavabdehlik, təşkilatçılıq tələb edir.

Gizir T.Əliyeva hərbi qulluqçularımızın sağalıb sıralarımıza qayıtmasında həkimlərlə yanaşı, tibb bacılarının da üzərinə az məsuliyyət düşmədiyini vurğulayır. Baş tibb bacısı kimi xəstələrə diqqət və qayğı ilə yanaşmağın vacibliyini tibb bacıları və xadimlərə də aşılayır. Hərbi Qospitalda xəstələrin qəbulu, müayinəsi, onlara qulluq göstərilməsi, həkimlərin təyin etdiyi dərmanları vaxtında qəbul etməsi və digər müalicə prosedurlarının icrası, düzgün qidalanması, müalicəsi başa çatdıqdan sonra çıxarılmağa hazırlanması və sair bu kimi işlərin yerinə yetirilməsində tibb bacılarının öhdəsinə düşən konkret vəzifələri var. O, qospitalın tibb bacılarının fəaliyyətini gündəlik olaraq nəzarətdə saxlayır, onların ixtisas hazırlığının, iş keyfiyyətlərinin təkmilləşdirilməsi yönündə tədbirlər görür. Bu baxımdan tibb bacılarının təcrübə mübadiləsi uğurlu addımdır. Baş tibb bacısı olaraq qospitalda keçirilən seminarlarda fəal iştirak edir.

Qeyd edim ki, gizir T. Əliyevanın atası, ehtiyatda olan polkovnik-leytenant Vaqif Əliyev Daxili Qoşunların veteranıdır. Bu faktın özü onun vətənpərvər ruhda tərbiyə olunmasında böyük rol oynayıb. Atasının hərbi xidmətdə keçdiyi yol onun üçün dəyərli örnəkdir. Mənimlə söhbətində bildirdi ki, hərbi xidmətə gəlişi onun öz seçimidir və Daxili Qoşunların hərbi qulluqçusu olmasından qürur duyur.

Gizir T.Əliyeva nümunəvi xidmati nəzərə alınaraq dəfələrlə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

Hərbi qulluqçumuza bundan sonrakı xidmətində uğurlar arzulayırıq.

Yalçın Abbasov

Coğrafi mövqeyindən, ictimai-siyasi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Məlumdur ki, narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

CƏMİYYƏTİN GƏLƏCƏYİ ÜÇÜN ƏN BÖYÜK TƏHLÜKƏ DAŞIYICISI - NARKOMANİYA...

Narkomaniya və narkotizm sarsıntı və faciələri ilə hüdudsuz olan sosial-iqtisadi, cinayət-hüquqi, mənəvi-psixoloji və tibbi cəhətdən bəlidir.

Narkomaniya yoluxucu xəstəlik kimi əhali, xüsusən də gənclər arasında yayılmış, öz miqyaslarını genişləndirərək transmilliləşmiş, bəşəriyyətin sosial-iqtisadi, mənəvi-əxlaqi dayaqlarını dağıtmaq səviyyəsinə çatmışdır. Hazırda vətəndaşları narkotizasiyasının acı nəticələrini hiss etməyən ölkə tapmaq mümkün deyildir. Narkomanlıq və narkobiznes arazi, milli, dini, sinfi və digər sərhədlər tanımayan, qlobal xarakter daşıyan beynəlxalq problemə çevrilmişdir.

Son yarım əsrdə narkomaniya və narkocinayətkarlıq nisbətən lokal fenomendən dünyada kriminal və antisosial aktivliyin əsas mənbəyinə çevrilmişdir. Narkotisəhsal prinsipcə planetar xarakter almış, dünyada ekstremizmin, qeyri-sabitliyin və siyasi turbulentliyin universal generatoruna çevrilmişdir.

İnsanların sağlamlığına birbaşa neqativ təsirindən başqa narkomaniyanın ictimai təhlükəliliyi ondan ibarətdir ki, narkomaniya müxtəlif tamah-zorakı xarakterli cinayətlərin törədilməsinə şərait yaradan kriminogen amil kimi çıxış edir. Mehkəmə-istintaq təcrübəsinə narkotik eyforiya və ya abstinent sindrom (abstinensiya - narkotik vasitənin və ya psixotrop maddənin qəbulunun qəflətən dayandırılması nəticəsində əmələ gələn vəziyyət olmaqla insan sağlamlığının fiziki, psixi, vegetativ-somatik və ya nevroloji pozulması ilə xarakterizə olunur) vəziyyətində narkomanların ən müxtəlif xarakterli tamah-zorakı cinayətlər törətməsi bərədə çoxsaylı faktlar vardır.

Narkomanlığın ictimai təhlükəliliyi insanların sağlamlığının ciddi pozulmasında, intellektuallığın, ictimai fəallığın aşağı düşməsində, sosial əlaqələrin daralmasında və parçalanmasındadır. Narkotiklərdən istifadə nəticəsində psixi xəstəliklərə düçar olan, cəmiyyətdə tüfeyli həyat sürən narkomanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsi hallarına tez-tez rast gəlmək mümkündür.

Uzun illər ərzində narkotizm problemi ilə məşğul olan tədqiqatçılar bu məsələyə toxunaraq göstərirlər ki, bütövlükdə narkotizmə cinayətkarlıq arasında qarşılıqlı əlaqənin və bunlar arasında bilavasitə asılılığın olması artıq heç kimdə şübhə doğurmur. Qiyməti çox baha olan və durmadan artan narkotiklərdən asılı vəziyyətə düşən narkoman, narkotik vasitələr almaq üçün vəsait əldə etmək məqsədilə cinayət törətməyə yüksək hazırlıq vəziyyətində olur. Narkotik vasitələrin qəbuluna ehtiyac güclendikdə, onun davranışının kriminal səbəbi artır. Narkomanın eqoizmi, onun bütün niyyət və hərəkətləri hər hansı bir yolla onun üçün zəruri olan narkotik dozanın əldə edilməsinə yönəlmişdir və onu hüquqazidd hərəkətlərə sövq edir. Bu halda narkomaniyanın xüsusi təhlükəliliyi narkotiklərdən istifadənin yalnız şəxsiyyəti məhv etməsindən deyil, həmçinin narkomaniyanın özünün cinayətlər törədilməsinin səbəblərindən biri kimi çıxış etməsindən ibarətdir.

Hətta ən zəif narkotik hərəkətin koordinasiyasını pozmağa və diqqəti aşağı salmağa qadirdir ki, bu da çox hallarda cinayətkar etinasızlığa, diqqətsizliyə, cinayətkar özünəgüvənməyə gətirib çıxara bilər. Bundan başqa, xəstə ehtirasların təsiri və narkotik "aclığın" dəf edilməsi üçün hər şeyə hazır olan bir çox narkomanlar öz patoloji tələbatlarını ödəmək üçün istənilən cinayətləri törətməyə hazırdırlar. Narkotik vasitələrin və psixotrop maddələrin istehlakı nəticəsində əmək qabiliyyətinin kəskin aşağı düşməsi və şəxsi büdcəsinin kəsirdə olması fonunda tolerantlıq güclənir, abstinensiya dərinləşir ki, bu da narkomanları qəbul etdikləri narkotik dozasını kəskin artırmağa vadar edir. Xroniki narkomanların bir çoxu tez və ya gec narkotik vasitəni və ya psixotrop maddəni əldə etmək üçün maddi vəsaitlərin tapılması yolunu oğurluq, soyğunçuluq, qulduurluq və digər bu kimi tamah və tamah-zorakı cinayətlərin törədilməsində görürlər.

Narkomanlıq cəmiyyətin gələcəyi üçün iki böyük təhlükə daşıyıcısıdır: birincisi, narkomaniya ilə xəstələnmiş fərdin şəxsiyyətində əsaslı dəyişikliklər baş verir ki, bunlar da öz növbəsində, onun və ailəsinin hayatında mənfi dəyişmələrə gətirib çıxarır. İkincisi, narkomaniya cinayətkarlığın, zorakılığın, işsizliyin artmasına, dəhşətli xəstəliklərdən olan QİÇS və hepatitin yayılmasına şərait yaradır.

Bəziləri hətta narkomanları mənasız yerə və qəddarcasına adam öldürən avtomatlar hesab edirlər. Eyni zamanda, avtomatdan, robotlardan fərqli olaraq onların psixikası normal işləmir, çox zaman idarəedilməz olurlar. Bir sıra hallarda növbəti narkotik doza üçün pul axtarışında onlar öz ailə üzvlərini, qonşularını, dostlarını belə öldürməyə də gedə bilərlər.

Narkotik maddələrin istehlakı nəticəsində əmək qabiliyyətinin kəskin aşağı düşməsi və şəxsi büdcəsinin kəsirdə olması fonunda tolerantlıq güclənir, abstinensiya dərinləşir ki, bu da narkomanları qəbul etdikləri narkotik dozasını kəskin artırmağa vadar edir. Bu qədər narkotikləri isə ancaq "qara" bazarda, özü də böyük pul müqabilində əldə etmək mümkündür. Nəticədə hər bir xroniki narkoman tez və ya gec narkotikləri əldə etmək üçün maddi vəsaitlərin tapılması məqsədi ilə cinayətkar üsullardan istifadə edir. Narkotik qəbul edən şəxsin cinayət törətməsi təəccüblü deyil. Çünki narkotik maddə baha qiymətə satıldığından, narkoman bu pulu əldə etmək üçün müəyyən müddət olanını sərf edir, əmlakını satır, sonra isə gəlir olmadığından quldurluğa, oğurluğa başlayır. Bir növ narkomaniya əleyhinə mübarizə aparmaq başqa növ cinayətlərin qarşısını almaq deməkdir. Ümumiyyətlə, narkomanlar və narkotik maddələrin satışı ilə məşğul olanlar çalışırlar ki, varlı adamların uşaqlarını bu "tələyə" salsınlar. Bu maddəni bir dəfə dadan qanc ardıcıl olaraq həmin adamı axtararaq özləri "dərdlərinin dərmanını" istəyirlər.

Beləliklə, şəxsiyyətin formalaşmasına narkomaniya və narkotizmin dağıdıcı təsiri dairəsi genişlənir və cəmiyyətə zidd tüfeyli mövcudluq üçün qidaverici mühit yaradılır.

Narkotik qəbul edən yeniyetmənin kriminal meyilləri xüsusən təhlükelidir. Belə ki, neqativ psiximi kənarlaşmalar onun yaş xüsusiyyətləri, xarakterin zəifliyi, yüksək emosional vəziyyəti, mənəvi özünə nəzarətin olmaması ilə bağlı xüsusən ağırlaşır. Beləliklə, eyforiya vəziyyətində yeniyetmələr yaşıtlara nəzərən hüquqpozuntularına daha çox meyillidirlər. Düzgün olmayan sosial-mənəvi istiqamətlənmə nəticəsində narkotik eyforiya və abstinensiya vəziyyətində olan yeniyetmə tərəfindən törədilən hüquq pozuntuları və ya cinayətlər çox zaman motivsiz, mənasız xarakter daşıyır, bəzən vandalizm doğurur, bir sıra hallarda xüsusi qəddarlığı ilə fərqlənir.

Beləliklə, artıq qeyd etdiyimiz kimi, narkomaniya sosial mənəvivyatın aşağı düşməsi olmaqla cəmiyyətə zidd, cinayətkar meyillərin və təmayüllərin, təcavüzkarlığın formalaşmasına, xüsusən ağır cinayətlərin törədilməsinə gətirib çıxarır.

Tamahkarlıq, qeyri-insani zorakılıq və qəddarlıq vəhşi eqoizm - əksər narkomanlara xas olan keyfiyyətlərdir. O da aydındır ki, narkotiklər olan yerdə cinayət də vardır. Bu bəlaya mübtəla olanların bir çoxu narkotik vasitə almağa görə pulu oğurluq, qulduurluq, soyğunçuluq yolu ilə qazanır. Bu məqsədlə adam öldürməkdən belə çəkinmirlər.

Narkomaniya və narkotizmlə effektiv mübarizə aparmaq, cəmiyyət və şəxsiyyət üçün olduqca təhlükəli olan təzahürlərin yayılmasının qarşısını qətiyyətlə almaq, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığın tibbi, sosial, psixoloji və iqtisadi xarakterli mənfi nəticələrini aradan qaldırmaq istəyən hamının, o cümlədən dövlət orqanlarının, ictimai təşkilatların, ayrı-ayrı vətəndaşların xüsusi diqqətini tələb edir. Ona görə də onunla mübarizəyə hər bir ölkənin aparıcı kriminoloqları, narkoloqları, psixoloqları, psixiatrları, sosioloqları, habelə xarici ölkələrin mütəxəssisləri cəlb edilməlidir. Narkomanlığın qarşısının alınmasında və narkobizneslə mübarizədə hüquq-mühafizə orqanları ilə bərabər səhiyyə və təhsil müəssisələri də xüsusi rol oynamalıdırlar. Eyni zamanda, nakromanlığın profilaktikasında kütləvi informasiya vasitələrinin, mətbuat, radio və televiziyanın, xüsusən də internetin imkanlarından daha geniş və səmərəli şəkildə istifadə edilməlidir.

Narkomaniyanın yayılması ilə mübarizədə ən vacib istiqamətlərdən biri də respublika əhalisi arasında sağlam həyat tərzinin təbliği və gənclərin narkotizm əleyhinə düzgün və sistematik tərbiyələndirilməsidir. Gənc nəsil əhalinin narkomaniyanın toruna rast gəldiyi yanılmadan, çətinliklərdən, münaqişələrdən onları dəf etməkdə çətinlik çəkdiyindən sınan ən kövrək hissəsidir. Əksəriyyət, əsasən də gənclər narkomaniyanın nə olduğu haqda heç düşünmürlər. İctimai fikir bu sosial bəlaya qarşı heçiqi mübarizəyə hələ tam hazır deyil.

Narkomaniya və narkotizmin real vəziyyəti, onu doğuran sosial-iqtisadi hadisələr, narkotizmlə mübarizədə dövlətin, cəmiyyətin mövcud imkan, qüvvə və vasitələri tam və dolğun şəkildə təhlil edilib qiymətləndirilməlidir. Narahatlıq, tələş və vahimədən, real vəziyyətin müayyən edilməsinə və dəqiq təhlilinə keçilməli, narkomaniya və narkotizmi xarakterizə edən əsas göstəricilər kəmiyyət və keyfiyyət baxımından ifadə edilməlidir. Yeniyetmə və gənclərin narkomaniya və narkobiznes "toruna" düşməsinin qarşısını almaq məqsədilə dövlət və cəmiyyətin bütün imkanları səfərbər edilməli, əks zərbənin əsas istiqamətləri, strategiyası və taktikası dəqiq hesablanmalıdır. İstər keçmiş ənənələrə, istərsə də dünya təcrübəsinə istinad edilərək, narkotizmə təsirin ən səmərəli üsulları axtarılaraq tapılmalıdır. Zənnimizcə, narkomaniya və narkotizmlə mübarizədə ayrı-ayrı ictimai təşkilatların, xeyriyyə cəmiyyətlərinin, dini qurumların imkanlarından və bacarıqlarından maksimum istifadə edilməlidir.

Bir sözlə, qarşıda asan olmayan, böyük zaman, qüvvə və bacarıq, təmkin və səbir tələb edən, olduqca çətin və mürəkkəb, kompleks xarakter daşıyan bir iş durur. Hər birimiz buna, ardıcıl, fasiləsiz və qətiyyətlə həyata keçirilməli olan narkomanlığın profilaktikası və narkobizneslə mübarizə işinə hazır olmalıyıq.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 10 (501)
15 may
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ RƏSMİ AÇILIŞI OLDU

Mayın 12-də Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının rəsmi açılış mərasimi keçirilib. Əvvəlcə 700 könüllü iştirakçı səhnəyə çıxıb. Bir sıra fiqurları yaratmaq üçün onlar əllərində parıltılı altıbucaq saxlayıblar. 7 metrlik ipək zolaqlarla çıxış edən Azərbaycan Dövlət Rəqs Ansamblının 10 rəqqası onlara qoşulub və "Yallı" rəqsi ifa olunub. Azərbaycan bayrağı 8 nəfər hərbçi tərəfindən arenaya gətirilib və Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının üç hərbçisi tərəfindən qaldırılıb. Bu zaman dövlət himni səsləndirilib. Stadionun damından Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq olub.





Ekranlarda göstərilən videoçarxda başlanğıc mərasimində Xəzərdən başlayan səyahət və Azərbaycanın böyük təbii gözəlliyə malik müxtəlif yerlərindən suyu toplayan uşaqlar göstərilib. Əllərində mis qablar tutan uşaqlar stadiona daxil olub və topladıqları suları səhnədəki böyük mis siniyə tökülər. Daha sonra hər komanda stadiona öz bayrağı altında daxil olub. İslam Həmrəyliyi İdman Federasiyasının bayrağı Azərbaycanın 10 çempionu tərəfindən stadiona gətirilib və hərbçilər tərəfindən qaldırılıb. Bütün idmançılar və hakimlər adından and içilib.

Birinci vitse-prezident və "Bakı 2017" IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin çıxış ediblər. Mehriban Əliyeva çıxışında deyib: "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir. İdmana yatırdığımız böyük sərmayə dünya səviyyəsində bacarıqları nəmimsəməklə, qurğuları və infrastrukturları yaratmaqla gələcək üçün böyük irsi təmin etdi. Bu axşam biz İslam ələmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur".

Ölkəmizin multikultural tarixinin açıq, tolerant cəmiyyətimizin ən ülvi hissəsi olduğunu vurğulayan Mehriban Əliyeva qeyd edib ki, Azərbaycan İslam tarixi və irsinin bir hissəsi olmaqdan, İslam dəyərləri ilə bütünləməkdən fərəh duyur: "Mən gözəl gənc könüllülərimizin hamısını salamlayıram. Biz sizinlə fəxr edirik. Sizin fədakarlığınız və vurğunluğunuz, xeyirxahlığınız və qətiyyətiniz bu Oyunları mümkün etdi. Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm. İslam ələminin idmançıları, sizi burada qonağımız kimi görmək olduqca sevindiricidir. Bütün Azərbaycan sizinlədir və siz böyük uğurlar arzulayır. Bu, sizin Oyunlarınızdır. Gələn on gün ərzində ölkəmiz sizin eviniz olacaq. Bu axşam mən ölkəmizin bütün nailiyyətlərinə görə qarşınızda fərəh hissi ilə çıxış edirəm".

Birinci vitse-prezident Mehriban Əliyeva çıxışını bu sözlərlə tamamlayıb: "Gücümüz həmrəylikdədir! - Bu ruhlandırıcı mesajı Oyunlarımız Azərbaycanın hüdudlarından çox uzaqlara göndərəcək".

Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib. Stadionda atəşfəşanlıq olub. Mərasimdə sülh və ümid haqqında universal hekayət təqdim edilib və İslam sivilizasiyasının böyük töhfələri qeyd olunub. Videoçarxda Azərbaycanın əsrlər boyu formalaşmış mədəniyyətindən qaynaqlanan hekayətdə maraqlı bilik və ixtira səyahətinə çıxmış kiçik qız və onun çərpələngindən bəhs edilib. Videoçarxda Mina adlı kiçik bakılı qızın babası ilə Filarmoniya bağında oynadığı göstərilib. Babası onun çərpələnginin quyruğuna dördüncü zolağı əlavə edərək, onu tamamlayıb. O, gözəl parkı gəzib, hər kəsə, onun ətrafında olanlara təbəssüm və nur bəxş edib. Babası izah edib ki, eləcəyimizə aparan yolu dəyişmək üçün əvvəlcə öz keçmişimizi qavramalıyıq. Beləliklə, o, çərpələngi bələdçi dostu kimi təqdim edərək, Minanı maraqlı bilik və tanışlıq səyahatinə dəvət edib. Mina möcüzəli qaydada öz çərpələngində Bakıdan uzaqlara uçub, Qobustanda çoxəsrlik tarixi olan qayaüstü rəsmləri öyrənmək üçün qadim Azərbaycan diyarını dolaşıb. Gözoxşayan mənzərəli yerlərin üzərindən ucan, Atəşgah məbədi və Yanardağda alovlanan əbədi odu seyr edən Mina çoxsaylı çalarları ilə seçilən əfsanəvi quş - simurqu görmək üçün əfsanələr dünyasına qədəm qoyub və simurq cücəsinin yumurtadan çıxmasına kömək edib. Mina ona minnətdar olan simurqun hədiyyəsini, gözəl ləələyini özü ilə götürüb. Qobustanın qayaüstü rəsmləri ekranda göstərildiyi zaman Mina qısa müddətdə Azərbaycandan asılan, ipək zolaqları ilə dövr edən digər dörd səhnə ustası ilə havaya qalxıb. Alim Qasımov minarənin zirvəsində azan oxuyub. Mina Heydər Məscidinə yollanıb. Əllərində fənər tutan yüzlərlə insan ona qoşulub. Gündəlik həyatın bir hissəsi olan ənənələrinə sadiq, İslam dünyasının müxtəlif yaşlarda insanlarını əks etdirən film ekranda nümayiş olunub. Çəkilişlər Azərbaycan, Avstraliya və Filipində aparılıb. Sonra yeni macəra başlayıb. Mina keçmiş zamana yollanıb və dünyanı gəzib dolaşaraq, qorxmaz səyyahlarla üzbəüz görüşüb, yarışıqlı günbəzlərə baxıb, dahi şairləri görüb, planetimizdən kənar kainatı seyr edib və ilk mexaniki cihazlarla tanış olub. Bütün bunlar coğrafiya, memarlıq, ədəbiyyat, astronomiya və ixtira kimi sahələrdə bəşəriyyətin əldə etdiyi möhtəşəm uğurları ilə yadda qalan İslamın qızıl dövrünün xəzinələri sırasındadır. İslam dünyasının səyyahları Asiya, Şimali Afrika, Avropa və Orta Şərqin geniş coğrafiyasını əhatə edən ticari yollar şəbəkəsi ilə yayılan ticarət, mədəniyyət və bilik axını məskəni olmuş izdihamlı karvansaralarda görüşüblər. 70-dən artıq iştirakçı, böyük tacir arabası, canlı at və dəvələr, qartal və şahin fiqurlarından ibarət səhnə göz qarşısında canlanıb. Mina ağ atın belində səhnəyə daxil olub. Səhnədə Günəş, Yer kürəsi, Ay və digər beş planetdən ibarət günəş sisteminin böyük modeli yaradılıb. Mina öz çərpələngində Bakı üzərindən uçaraq, öz doğma şəhərinin yeni simasını görüb. Şəhərdəki ondan artıq gözəl memarlıq nümunəsini gördükdən sonra görüntülər Bakı Olimpiya Stadionu ilə başa çatıb. Marasim stadion və Bakı Dənizkənarı Bulvar üzərində möhtəşəm atəşfəşanlıqla bitib.

Qeyd edək ki, oyunlarda 54 ölkəni tam sil edən 3 mindən çox idmançı, 1000-dən çox komanda rəsmiləri və bir o qədər də texniki nümayəndə iştirak edir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Yarışlar Bakının ən müasir 16 idman meydançasında 24 növ üzrə keçirilir. Atletlər 269 dəst medal uğrunda mübarizə aparırlar. Ən çox medal dəsti atıcılıq və atletika yarışlarındadır. Azərbaycanı bu Oyunlarda 325 atlet təmsil edir. Ən çox idmançı ilə Türkiyə təmsil olunur - 345 nəfər. İdmançıların sayına görə üçüncü yerdə 300 atletlə İran qərarlaşıb. Yarışlar 1000-dən çox mətbuat nümayəndəsi tərəfindən işıqlandırılacaq. IV İslam Həmrəyliyi Oyunlarını 50-dən çox ölkədə, ümumilikdə, 1 milyarddan çox tamaşaçı izləyəcək.

IV İSLAM HƏMRƏYLİYİ İLƏ ƏLAQƏDAR DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN HAZIRLIĞI YOXLANILIB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı oyunlar zamanı qoşunların qarşısına qoyulmuş bütün tapşırıqların yüksək səviyyədə yerinə yetirilməcəyinə əminliyini ifadə edib

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun tapşırığına əsasən, mayın 2-də Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının Bakıda yerləşən "N" saylı hərbi hissəsində sıra baxışı keçirilib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun iştirakı ilə keçirilən tədbirdə IV İslam Həmrəyliyi Oyunları zamanı ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsinə cəlb olunmuş hərbi qulluqçuların hazırlığının, geyim təminatının, xüsusi avadanlıq, eləcə də nəqliyyat vasitələri ilə təchizatının vəziyyəti yoxlanılıb.

General-leytenant Ş.Məmmədov Azərbaycanın əvəzsizliyi edəcəyi yarışları ölkəmizin beynəlxalq nüfuzunun göstəricisi, əldə etdiyi nailiyyətlərin tərkib hissəsi kimi dəyərləndirərək, İslamiadanın müsəlman xalqları və dövlətləri arasında birlik və həmrəyliyin möhkəmlənməsinə xidmət edəcəyini bildirib. Qeyd olunub ki, idmanın 20 növü üzrə keçiriləcək Oyunlar ərəfəsində və yarışlar zamanı digər güc strukturları ilə yanaşı, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək qoşunların hazırlığı və bütün növ təminatı üzrə qarşıya qoyulan mühüm tapşırıqlar tam yerinə yetirilib.

Hərbi hissə komandiri yarışların təşkil olunacağı bütün ərazilərə, obyektlərə baxış keçirilməsi, müvafiq tədbirlərin görülməsi bərədə məlumat verib.

Bildirilib ki, həmin ərazilərə xüsusi icazəsi olmayan şəxslərin buraxılmasının və avtomaşınların daxil olmasının, eyni zamanda baş verə biləcək digər xoşagəlməz halların qarşısının alınması tam yerinə yetiriləcək. Xidmətin təşkili ilə əlaqədar müvafiq plan-hesab hazırlanıb, əməliyyat qərargahları yaradılıb.

(ardı 2-ci səhifədə)

IV İSLAM HƏMRƏYLİYİ İLƏ ƏLAQƏDAR DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN HAZIRLIĞI YOXLANILIB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı oyunlar zamanı qoşunların qarşısına qoyulmuş bütün tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini ifadə edib

(əvvəli 1-ci səhifədə)

Hərbi hissə rəhbərliyi xidmətaparma yerləri ilə əyani tanış olub, həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlər keçirilib. Hazırlıq mərhələsində buraxılış rejimini təmin edəcək qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.

Daha sonra xüsusi təyinatlı bölmələrin, perimetr boyu və styuard xidmətinin aparılmasına cəlb olunacaq şəxsi heyətin, o cümlədən

qadın hərbi qulluqçuların təchizatına da baxış keçirilib.

Şəxsi heyətin hazırlığını yüksək qiymətləndirən general-leytenant Ş.Məmmədov xidmətin aparılmasına cəlb olunan digər hüquq-mühafizə orqanları ilə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili istiqamətində konkret tapşırıqlarını verib, şəxsi heyətə çətin və məsuliyyətli işdə uğurlar arzulayaraq, qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidməti

DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI IV İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA İŞTİRAK EDİRLƏR

Azərbaycan bu gün dünyada mədəniyyətlərarası dialoqa, qlobal təhlükəsizliyə, iqtisadi tərəqqiyə layiqli töhfələr verən, beynəlxalq əhəmiyyətli tədbirlərə, o cümlədən möhtəşəm idman yarışlarına evsahibliyi edən ölkə kimi tanınır. Respublikamız qeyd olunan istiqamətlər üzrə böyük layihə və tədbirlərin həyata keçirilməsində zəngin təcrübəyə malikdir.

Son illər ölkəmizin paytaxtı dünyanın idman mərkəzlərindən birinə çevrilib. İdmanın müxtəlif növləri üzrə dünya və qitə miqyaslı çempionatlar, geniş iştirakçı tərkibli beynəlxalq turnirlərin keçirildiyi Bakı şəhəri öz tarixində bir ilkə də imza ataraq, I Avropa Oyunlarını keçirmək hüququ qazanıb və 2015-ci ildə bu tarixi idman yarışı yüksək səviyyədə təşkil olunub.

2017-ci il mayın 12-dən paytaxtımız IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edir. Oyunlar mayın 22-də başa çatacaq. Beləliklə, bütün İslam dünyasının diqqəti Bakıya yönəlib. Ölkəmizə göstərilən bu növbəti etimad hər birimizdə haqlı qürur hissi doğurur. IV İslam Həmrəyliyi Oyunları öz əhəmiyyətinə görə digər qlobal idman yarışlarından geri qalmır və bütövlükdə İslam ölkələrinin həmrəyliyini gücləndirir.

Qeyd edək ki, IV İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən hakimlər və idmançılar arasında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçuları da var.

Onları sizə təqdim edirik.

Daxili Qoşunların Baş İdarəsində məsul icraçı gizir Könül Sultanova İslam Oyunlarında voleybol idman növü üzrə hakim kimi iştirak edir. O, təhsil aldığı Azərbaycan Kooperasiya Universitetinin voleybol üzrə yığma komandasının üzvü olub. 2014-cü ildən voleybol idman növü üzrə hakim kimi fəaliyyətə başlayıb. Avropa Oyunlarında çimərlik voleybolu üzrə hakim heyətinin tərkibinə daxil edilib. Bundan əlavə, Azərbaycan superliqasında, habelə gənclər arasında əvəzedici komandaların çempionatında hakim olan gizir K.Sultanova göstərilən etimadı layiqincə doğrulub.

Daxili Qoşunların idman komandasında təlimatçı gizir Ruslan Lunev güllə atıcılığı üzrə idman ustasıdır. O, respublikamızın tanınmış idmançısı İrdə Aşumova vanın oğludur. 2002-ci ildən başlayaraq atıcılıq idman növü ilə məşğuldur. 2006-cı ildən etibarən yarışlara qatılıb. Respublika və beynəlxalq əhəmiyyətli yarışlarda mahir atıcı kimi uğurlu nəticələr göstərib. Respublika çempionu və rekordçusudur. Gürcüstan və Norveçdə keçirilən beynəlxalq turnirlərin qalibi olub və qızıl medallara layiq görülüb. Almaniyada güllə atıcılığı üzrə Dünya kuboku uğrunda yarışda fərqlənərək 76 iştirakçı arasında 10-cu yeri tutub.

Daxili Qoşunların idman komandasında atıcı əsgər Ayxan Mamayev karate idman növü üzrə Dünya çempionudur, İki dəfə Avropa çempionu titulunu qazanıb. Həmçinin Dünya və Avropa çempionatlarının gümüş və bürünc mükafatçısıdır. İslam Həmrəyliyi Oyunlarında iki dəfə qızıl medala yiyələnib. İlk Avropa Oyunlarının qalibidir. 11 dəfə Azərbaycan çempionu olub. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilib.

Daxili Qoşunların hərbi qulluqçusu atıcı əsgər Teymur Məmmədov peşəkar bokseudur. I Avropa Oyunlarının qalibidir. London Olimpiya Oyunlarının bürünc mükafatçısıdır. Dünya çempionatlarında gümüş və bürünc medallar qazanıb. Avropa çempionatlarında isə qızıl və gümüş medallara layiq görülüb. 4 dəfə Azərbaycan çempionu, 1 dəfə isə Böyük İpək Yolu beynəlxalq turnirinin qalibi olub. Beynəlxalq və respublika əhəmiyyətli turnirlərdə dəfələrlə yüksək nəticə göstərərək I yeri tutub.

Azərbaycan Respublikasının "Şöhrət" ordeni və "Tərəqqi" medalı ilə təltif edilib.

Hərbi qulluqçularımıza IV İslam Həmrəyliyi Oyunlarında qalib kürsüyə ucalmağı arzulayırıq.

Yalçın Abbasov

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ HƏRBİ QULLUQÇULARIMIZ TƏRƏFİNDƏN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL EDİLMƏKDƏDİR

Bakı şəhərində davam edən IV İslam Həmrəyliyi Oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi kimi məsul vəzifəyə digər hüquq-mühafizə orqanları ilə yanaşı, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da cəlb edilib.

Yarışlar ərəfəsində qoşunların şəxsi heyəti İslam Oyunları ilə bağlı yarış və qeyri-yarış obyektlərinin mühafizəsi istiqamətində qarşıya qoyulmuş tapşırıqların öhdəsindən uğurla gəlməkdədir.

Həvalə olunmuş obyektlərin mühafizəsinə cəlb edilmiş şəxsi heyətlə davamlı olaraq görüşlər keçirilib, xidmətin təşkili və aparılması məqsədilə lazımi tədbirlər yerindəcə həll edilib.

Həvalə olunmuş obyektlərin mühafizəsi məqsədilə perimetr boyu xidmət aparan şəxsi heyətdən başqa, müvafiq obyektləri qəbul edərək, yoxlama-axtarış tədbirlərini həyata keçirən mühəndis-istehkamçılar da vəzifələrinin öhdəsindən layiqincə gəlməkdə, nəzarət-buraxılış məntəqələrində isə hərbi qulluqçularımız tərəfindən buraxılış rejiminə ciddi riayət olunması təmin edilməkdədir.

Bu fəaliyyətdə qadın hərbi qulluqçularımız da xidməti tələb olunan səviyyədə aparmaqdadır.

Ötən müddət ərzində mühafizə olunan obyektlərdə xidmət aparan hərbi qulluqçularımız baş verə biləcək bir sıra xoşagəlməz halların qarşısını alıblar. Belə ki, postda xidmət aparan hərbi qulluqçular və polis əməkdaşları tərəfindən ərazilərə daxil olan şəxslərə və avtomobillərə baxış keçirilərkən içəri keçirilməsi qadağan edilən əşyalar aşkar edilib, buraxılış rejimini pozmağa cəhd edən şəxslər saxlanılıb. Pozuntular yerindəcə aktlaşdırılaraq, müvafiq tədbirlər görülüb.

Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində mühafizə olunan obyektlərə daxil olma cəhdlərinin qarşısının alınması bir daha şəxsi heyətin xidmət məsuliyyətlə yanaşmasından və sayıqlıq nümayiş etdirməsindən xəbər verir.

Bütün bunlar onu deməyə əsas verir ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları IV İslam Həmrəyliyi Oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə qarşıya qoyulmuş tapşırıqların icrasına yüksək səviyyədə hazırlaşıb.

Qeyd edək ki, Daxili Qoşunların hərbi qulluqçuları İslamiada zamanı ümumilikdə 19 obyekt üzrə xidmətə cəlb edilib. Onlardan 14-ü yarış, 5 isə qeyri-yarış obyektləridir.

Mətbuat xidməti







BEYNƏLXALQ YARIŞLARDA DAXİLİ QOŞUNLARI UĞURLA TƏMSİL EDƏN QADIN HƏRBİ QULLUQÇUMUZ

Daxili Qoşunlarda nümunəvi xidməti və nizam-intizamıyla seçilən hərbi qulluqçularımızdan biri də Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmət edən gizir Günay Əliyevadır. Xidməti vəzifə borclarına məsuliyyətlə yanaşan qadın hərbi qulluqçumuz, eyni zamanda Daxili Qoşunları beynəlxalq idman yarış-larında yüksək peşəkarlıqla təmsil edir.

O, 1992-ci il yanvarın 1-də Bakıda dünyaya gəlib. 2009-cu ildə Bakı şəhəri Nərimanov rayonunda yerləşən 258 nömrəli orta məktəbi bitirib. 2010-2014-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alıb.

Hələ erkən yaşlarından idmana böyük həvəs göstərən Günay öz gələcək karyerasını da bu sahədə görürdü. Ölkəmizi müxtəlif idman yarışlarında uğurla təmsil edən gizir G.Əliyeva hər yeni uğurunda arxayınlaşmır, əksinə gələcəkdə daha böyük nailiyyətlər qazanmaq arzusuyla əzmlə çalışırdı.

Artıq 12 ildir ki, idmanın Karate növü ilə məşğul olan hərbi qulluqçumuz "birinci dan qara kəmər" ustasıdı. 2008-ci ildə Asiya çempionu adını qazanan idmançımız 2011-ci ildə Gürcüstanda keçirilən kinq-boksinq üzrə çempionatda Zaqafqaziya çempionu adını, həmin ildə Ukraynada keçirilən Dünya çempionatında isə 3-cü yeri qazanıb. Növbəti dəfə 2015-ci ildə Avropa çempionu adını qazanan Günay 2017-ci il mayın 4-dən 7-nə kimi Ukraynanın Xarkov şəhərində təşkil olunmuş Kempo Karate və Kobudo üzrə dünya çempionatının qalibi kimi tanındı.

Əldə etdiyi davamlı uğurları, bacarığı ilə yoldaşlarına örnək olan hərbi qulluqçumuzun nailiyyətləri hər birimizi sevindirir. Azərbaycan bayrağını beynəlxalq yarışlarda şərəflə dalğalandıran, təmsil etdiyi qurumu öz uğurları ilə sevindirən gizir G.Əliyevaya yeni-yeni qələbələr arzu edirik.

leytenant N.Ağayeva

DAXİLİ QOŞUNLARIN XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ƏSGƏRLƏRİ HƏRBİ ANDI QƏBUL EDİBLƏR

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı hərbi andiçmə münasibətilə şəxsi heyəti təbrik edib

Mayın 13-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin tantənəli andiçmə mərasimi keçirilib. Mərasimdə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov iştirak edib.

Qoşunların Veteranlar Şurasının üzvlərinin və əsgər valideynlərinin də qatıldığı mərasimdə əvvəlcə Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Nümunəvi-göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Hərbi hissə komandiri polkovnik Salamat Cəfərov çıxış edərək, əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına söz veriblər.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı hərbi andı qəbul edən əsgərləri əlamətdar gün münasibətilə təbrik edərək, tövsiyələrini çatdırıb. O qeyd edib ki, əsgərlər bundan sonra daha intizamlı və cəsur, Vətənin müdafiəsinə hazır olmalı, Azərbaycan əsgərinə xas olan bütün keyfiyyətləri özlərində formalaşdırmalıdırlar.

Bu gün Daxili Qoşunlarda hər bir əsgərin normal xidməti üçün hərtərəfli şəraitin yaradıldığını deyən general-leytenant Ş.Məmmədov bildirib ki, hərbi qulluqçularımızın sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə atılan bütün addımlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ordu quruculuğuna olan diqqətin tərkib hissəsidir. Odur ki, hər birimiz Vətənin etibarlı müdafiəsi, dövlət və dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın firavanlığı, bunun üçün ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi naminə cənab Ali Baş Komandanın qarşımıza qoyduğu tapşırıqları vicdanla yerinə yetirməli, xidmətin düzgün, keyfiyyətli təşkili və aparılması üçün əlimizdən gələni esirgəməməliyik.

O, sıralarımıza daxil olan hər bir gəncin Vətənə sədaqətlə xidmət edəcəyinə, xidmət-döyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsində öz fədakar xidmətini əsirgəməyəcəyini, Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacağına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar əldə edəcəyinə əminliklə ifadə edib.

Mərasimdə çıxış edən qonaqlar da əsgərləri hərbi andı qəbul etmələri münasibətilə təbrik ediblər. Onlar Daxili Qoşunlarda şəxsi heyət, o cümlədən əsgərlər üçün yaradılmış hərtərəfli şəraitə görə ölkə başçısına və Daxili İşlər Nazirliyi rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Hərbi andiçmə mərasimi şəxsi heyətin tantənəli keçidi ilə başa çatıb.

Mətbuat xidməti

DAXİLİ QOŞUNLARIN NÜMUNƏVİ-GÖSTƏRİCİ HƏRBİ ORKESTRİ KONSERT PROQRAMI İLƏ ÇIXIŞ EDİB

Mayın 10-da Milli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü respublikamızın hər yerində olduğu kimi, Hacıqabul rayonunda da böyük təntənə ilə qeyd olunub.

Əvvəlcə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hacıqabulda yerləşən "N" saylı hərbi hissənin şəxsi heyəti və əsgər valideynləri Heydər Əliyev Mərkəzinin qarşısında ildönümü münasibətilə təşkil olunmuş kitab və gənclərin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Sonra Hacıqabul rayon Yay Konsert Kompleksində Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestri rayon icti-maiyyəti, hərbi hissənin şəxsi heyəti və əsgər valideynləri qarşısında konsert proqramı ilə çıxış edib.

Bayram konsertində Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov, Daxili Qoşunlar Komandanının müavini - Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor Vidadi Əliyev və digər vəzifəli şəxslər iştirak edib.

Hərbi orkestr xidmətinin rəisi - baş hərbi dirijor, Azərbaycan Respublikasının "Əməkdar artist"i polkovnik-leytenant İlqar Novruzovun müşayiəti ilə orkestrin solistləri Cahangir Qurbanov, Amil Məmmədov, Fidan Hacıyeva, Zaur Əmiraslanov, Siyavuş Mehdiyev, Zabitə Alıyeva, Vəsilə İbrahimova və başqaları hərbi vətənpərvərlik hissi aşılayan mahnılar ifa ediblər.

Konsert rayon sakinləri tərəfindən rəğbətlə qarşılanıb. Bayram tədbiri atəşfəşanlıqla sona çatıb.

Mətbuat xidməti

BÖLMƏ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI VAXTINDA VƏ DÜZGÜN İCRA EDİR

12318 saylı hərbi hissənin Qərargahında şəxsi heyətin uçotu üzrə bölmə xidməti fəaliyyəti ilə fərqlənir.

Qərargah rəisinin şəxsi heyətin uçotu üzrə baş köməkçisi baş leytenant İsmayıl Quliyev görülən işlər barədə məlumat verərkən bildirdi ki, bölmə hərbi hissədə şəxsi heyətin uçotunu təşkil edir, gündəlik döyüş məsrəfi, şəxsi heyət üzrə müəyyən edilmiş məlumatları vaxtlı-vaxtında hazırlayır və hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisinə məruzə edir. O, qeyd etdi ki, hərbi hissəyə gəlmiş müxtəlif kateqoriyalı hərbi qulluqçuların bölmələrə bölüşdürülməsi üzrə hesablamaların tərtib olunması, o cümlədən xidmət üzrə yerdəyişmələr, hərbi rütbələrin verilməsi, təltiflərə təqdim olunması da görülən işlərdəndir.

Baş leytenant İ.Quliyev deyir ki, gündəlik olaraq bölmənin hərbi qulluqçularına funksional vəzifələrinə uyğun tapşırıqlar verir. Verilmiş tapşırıqlar üzrə şəxsi heyət gündəlik fəaliyyətini həyata keçirir. Qərargahda məsul icraçı gizir Xanım Ələkbərova nizami hissə üzrə əmrin layihəsini vaxtında hazırlayıb təqdim edir, şəxsi heyətin uçotu barədə müəyyən olunmuş məlumatları aidiyyəti üzrə rəisinə məruzə edir. Zabit, gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçuların qeydiyyət dəyişikliklərini mütəzam olaraq uçot kitablarında qeydə alır .

Qərargahda digər məsul icraçı kiçik gizir İsmi Mikayılov zabit, gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçuların xidmətə vəsiqələrinin uçotunu aparır, qeydiyyat sənədlərinə, hərbi biletlərə və şəxsiyyətini təsdiq edən vəsiqələrə vaxtlı-vaxtında dəyişikliklər edir.

Bölmənin kargüzarı çavuş Cavid Xəlilov isə məzuniyyət biletlərini, ezamiyyət və göndəriş vərəqələrini, habelə şəxsi heyətin qeydiyyatına dair sənədləri hazırlayıb hərbi qulluqçulara təqdim edir.

Baş leytenant İ.Quliyevin sözlərinə görə, fəaliyyətlərində nöqsana yol vermə-mək üçün bölmənin şəxsi heyəti bilik və bacarıqlarının artırılması istiqamətində daima öz üzərilərində səylə çalışır.

baş leytenant T.Əlizadə

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 72-ci İLDÖNÜMÜ QEYD OLUNUB

May ayının 5-də Daxili Qoşunların Baş İdarəsində 9 may - Faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə ikinci dünya müharibəsinin iştirakçısı müharibə və əmək veteranı Camal Qəhrəmanov fəxri qonaq kimi iştirak edib.

Faşizm üzərində qələbənin möhtəşəm bir qələbə olduğunu bildirərək, bu münasibətlə bütün tədbir iştirakçılarını bir daha təbrik edib, səmimi arzularını çatdırıb. Həmin illərdə soydaşlarımızın ön cəbhədə qəhrəmanlıq nümunələri və cəsarət nümayiş etdirdiyi, qələbənin qazanılmasına misilsiz töhfələr verdikləri fəxr-lə qeyd olunub.

Müharibə dövrünün çətinliklərini xüsusilə qeyd edən qonaq azərbaycanlıların nəinki ön cəbhədə, həmçinin arxa cəbhədə də "hər şey cəbhə üçün, hər şey qələbə üçün" devizi altında düşmənə qarşı mübarizə apardıqlarını vurğulayıb. Qələbənin qazanılmasında Bakı neftinin əvəzsiz rol oynadığı da nəzərə çatdırılıb.

Qeyd olunub ki, müharibə dövründə 600 mindən çox azərbaycanlı oğlan və qız cəbhəyə yollanmış, 87 qırıcı təyyarə batalyonu və 1124 özünümüdafiə dəstələri təşkil olunmuşdur. Göstərilən qəhrəmanlığa görə 130-a yaxın həmyerlimiz "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüş, 30 nəfər "Şərəf ordeni", 170 min nəfər isə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişdir.

Sonda C.Qəhrəmanov bu gün respublikamızda veteranlarımıza dövlət tərəfindən göstərilən yüksək qayğıdan razılığını bildirərək, işğal altında qalan torpaqlarımızın tezliklə azad olunmasını və qələbə gününün o torpaqlarda qeyd olunmasını arzulayıb.

leytenant N.Ağayeva

KOMENDANT BÖLÜYÜ QABAQCILLAR SIRASINDADIR

Daxili Qoşunların hərbi hissələrinin həyatı, müxtəlif bölmələrin fəaliyyəti barədə müntəzəm olaraq yerlərdəki ştatdankənar müxbir postlarımızdan da məlumatlar alırıq. Bu məlumatlarda hərbi qulluqçularımızın xidmətdə əldə etdiyi uğurlar öz aksini tapır.

12318 saylı hərbi hissədəki ştatdankənar müxbir postumuzdan göndərilən material da bu mövzudadır.

Hərbi hissənin komendant bölüyü ona tapşırılmış obyektlərin mühafizə və müdafiəsi zamanı yüksək nizam-intizam və döyüş hazırlığı nümayiş etdirir.

Bölükdə xidmət etmək üçün əsgərlərin seçilməsi və hazırlanması hərbi hissə və komendant bölüyünün komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılır. Seçilmiş hərbi qulluqçulara bölüyün hərbi hissənin həyatında rolu, döyüş xidmətinin əhəmiyyəti və xüsusiyyətləri izah olunur, xidmət müddətində onların fəaliyyətinin əsasını təşkil edən Silahlı Qüvvələrin Qannizon və Qarovul xidmətləri nizamnaməsinin müvafiq maddələri öyrədilir, aidiyyəti olan digər normativ sənədlərin tə-mət hərbi qulluqçuları şəxsi heyətlə davamlı olaraq fərdi və qrup halında söhbətlər aparır, onlar arasında nizam-intizamın möhkəmləndirilməsində birgə fəaliyyət göstərirlər. Bölük komandiri, həmçinin bölük komandirinin müavini baş leytenant Rüstəm Əfəndiyevin, taqım komandiri leytenant Bilal Məmmədovun qarovul rəisi kimi xidmətin düzgün təşkilinə nail olduqlarını, bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Həmid Rəhimovun şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi yönündə müsbət nəticələr əldə etdiyini, bölüyün başçavuşu baş gizir Sənan Hüseynovun bölükdə daxili qaydaqanunun saxlanılması, günün nizam qaydalarına riayət olunması istiqamətində tələbkarlıq göstərdiyini qeyd etdi. Həmçinin, qarovul xidməti zamanı qarovul rəisinin kömakçisi kimi çavuş Hörmət İsrafilov, kiçik çavuş Elpərəst Rüstəmlinin, əsgərlərdən isə Teyyub İsgəndərov, Sərxan Cəbrayılov, İsgəndər Verdiyev, Xudu Kazımovun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini vurğuladı.

Ümumilikdə, bölükdə qulluq edən hərbi qulluqçular hərbi xidmət borcunun müqəddəsliyini dərk edərək, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində əzm-karlıq göstərirlər.

12318 saylı hərbi hissə, ştatdankənar müxbir postu

HƏRBİ HİSSƏNİN TİBB PERSONALI FUNKSİONAL VƏZİFƏLƏRİNİN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞIR

Şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir

Ötən sayımızda 16077 saylı hərbi hissənin həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti haqqında sizlərə məlumat vermişdik. Qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələn hərbi hissənin şəxsi heyətinin döyüş qabiliyyətinin, eləcə də fiziki göstəricilərinin yüksək olmasında başlıca amil onların sağlamlığının mükəmməl olmasıdır, desək, yanılmarıq.

Hərbi qulluqçuların səhhətinin qayğısına qalan 16077 saylı hərbi hissənin tibb personalı üzərilərinə düşən vəzifələri uğurla icra edir.

Tibb xidmətinin rəisi tibb xidməti mayoru Sadəttin Bəkirov şəxsi heyətin sağlamlığının qorunması istiqamətində görülən işlərdən danışdı. O, hər bir hərbi qulluqçunun sağlamlığının qorunması üçün kazarmada təmizlik işlərinin daima aparılmasının, habelə şəxsi gigiyena qaydalarına məsuliyyətlə yanaşmalarının vacibliyini vurğuladı.

Bildirdi ki, hər sahər tabeçiliyində olan hərbi qulluqçulara aidiyyəti üzrə tapşırıqlar verir. Məsələn, sanitar-təlimatçı dezinfektorlar baş çavuş Ramiq Anzurov və baş çavuş Elməddin Səfərov plana əsasən hər həftənin şənbə günü bölmələrdə, zirzəmilərdə dezinfeksiya işləri aparırlar. Zərurət yarandıqda isə bu işlər hər gün həyata keçirilir.

Personalın digər bir üzvü mülki işçi aptek rəisi-feldşer Günay Allahverdiyeva bölmələri tibbi preparatlarla fasiləsiz təmin edir. Bundan başqa, resept və tələbnamələr üzrə dərmanları düzgün və vaxtında hazırlamaq da onun funksional vəzifələrindəndir.

Beləliklə, hərbi hissənin tibb personalı funksional vəzifələrinə məsuliyyətlə yanaşır və şəxsi heyətin sağlamlığının keşiyində mətin dayanır.

baş leytenant T.Əlizadə